QANUN № 02 (352), 2024, s. 23-28

**Cəbi Gülşən Zabit qızı,**
Bakı Dövlət Universitetinin Hüquq fakültəsinin Konstitusiya hüququ kafedrasının müəllimi, hüquq üzrə fəlsəfə doktoru
Ünvan: Akademik Zahid Xəlilov küçəsi, 33
E-mail: gulshanjabi@bsu.edu.az

**UOT 341.01; 342.4; 342.7; 342.724; 342.727; 342.74; 342.95**
**DOI: 10.30546/2218-9130. 02.352.2024.08**

# KÜÇƏ ADLARININ HÜQUQİ TƏNZİMLƏNMƏSİ, MƏDƏNİ İRS VƏ İDEOLOJİ MƏSƏLƏLƏR HAQQINDA

***Açar sözlər:*** *Azərbaycan Respublikası, xalqın iradəsi, küçə adları, mədəni irs, ictimai fikir, toponimlər, beynəlxalq aktlar.*

***Ключевые слова:*** *Азербайджанская Республика, воля народа, названия улиц, культурное наследие, общественное мнение, топонимы, международные акты.*

***Keywords:*** *Republic of Azerbaijan, will of the people, street names, cultural heritage, public opinion, toponyms, international acts.*

Xalqların tarixinin mühafizəsi və gələcək nəsillərə ötürülməsi, mövcud nəsillərdə milli özünüdərkin inkişafı, milli iftixar hissinin formalaşması və gücləndirilməsində faydalı olan müxtəlif üsullar var ki, bunların sırasında həm tarixiliyi, həm də təhsil və dünyagörüşü fərqindən asılı olmayaraq, bütün insanlara informativ xitab edə bilən bir kateqoriya kimi prospekt, küçə, müxtəlif məkanlara verilən adlar çıxış edir.

Küçə adları məsələsi texniki xarakterli məsələ deyil, həm hüquqi kateqoriya, həm toponim kimi ciddi diqqət yetirilməli məsələlərdən biridir.

Bu adlar xalqın tarixini, milli kimliyini ifadə etməklə bərabər, cəmiyyətin müxtəlif kontingentinə xitab etməklə ictimai fikir formalaşdırır, ideoloji tərəfdən təsir gücünə malik olur.

***Küçə adlarının milli və beynəlxalq-hüquqi tənzimlənməsinə dair.*** Məsələnin aydınlaşdırılması üçün həm milli [1] və beynəlxalq qanunvericilik aktlarına, həm də beynəlxalq elmi-nəzəri materiallara diqqət etmək vacibdir.

Azərbaycan Respublikasının 12 noyabr 1995-ci il tarixli Konstitusiyasının Preambulasına əsasən **xalqın iradəsinin ifadəsi kimi** qanunların aliliyini təmin edən hüquqi, dünyəvi dövlət qurmaq Azərbaycan xalqının özünün çoxəsrlik dövlətçilik ənənələrini davam etdirərək, "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" Konstitusiya Aktında əks olunan prinsipləri əsas götürərək, bütün cəmiyyətin və hər kəsin firavanlığının təmin edilməsini arzulayaraq, ədalətin, azadlığın və təhlükəsizliyin bərqərar edilməsini istəyərək, keçmiş, indiki və gələcək nəsillər qarşısında öz məsuliyyətini anlayaraq, suveren hüququndan istifadə edərək, təntənəli surətdə bəyan etdiyi niyyətlərdən biridir.

Azərbaycan Respublikası Konstitusiyasının 16.II maddəsinə əsasən Azərbaycan dövləti mədəniyyətin, təhsilin, səhiyyənin, elmin, incəsənətin inkişafına yardım göstərir, ölkənin təbiətini, **xalqın tarixi, maddi və mənəvi irsini qoruyur.**

Azərbaycan Respublikası Konstitusiyasının 40-cı maddəsinə əsasən "I. Hər kəsin mədəni həyatda iştirak etmək, mədəniyyət təsisatlarından və mədəni sərvətlərdən istifadə etmək hüququ vardır. II. **Hər kəs tarixi, mədəni və mənəvi irsə hörmətlə yanaşmalı, ona qayğı göstərməli, tarix və mədəniyyət abidələrini qorumalıdır**."

Azərbaycan Respublikası Konstitusiyasının 77-ci maddəsinə əsasən tarix və mədəniyyət abidələrini qorumaq hər bir şəxsin borcudur.

Həmçinin Azərbaycan Respublikası Konstitusiyasının 71-ci maddəsinə əsasən "I. Konstitusiyada təsbit edilmiş insan və vətəndaş hüquqlarını və azadlıqlarını gözləmək və qorumaq qanunvericilik, icra və məhkəmə hakimiyyəti orqanlarının borcudur. II. **İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının həyata keçirilməsini heç kəs məhdudlaşdıra bilməz**. Hər kəsin hüquq və azadlıqları bu Konstitusiyada və qanunlarda müəyyən edilmiş əsaslarla, habelə digərlərinin hüquq və azadlıqları ilə məhdudlaşır. Hüquq və azadlıqların məhdudlaşdırılması dövlət tərəfindən gözlənilən nəticəyə mütənasib olmalıdır".

Azərbaycan Respublikası Konstitusiyasının 71.V maddəsinə əsasən isə "Bu Konstitusiyanın heç bir müddəası insan və vətəndaş hüquqlarının və azadlıqlarının ləğvinə yönəldilmiş müddəa kimi təfsir edilə bilməz".

Həmçinin Azərbaycan Respublikası Konstitusiyasının 94.I.21 və 94.II maddələrinə əsasən Azərbaycan Respublikasının Milli Məclisi ərazi quruluşuna dair ümumi qaydalar müəyyən edir və bu barədə qanun qəbul edir. Buna uyğun olaraq qəbul edilmiş 13 iyun 2000-ci il tarixli "Ərazi quruluşu və inzibati ərazi bölgüsü haqqında" Azərbaycan Respublikası Qanununun 9.8-ci maddəsinə əsasən prospekt, küçə, meydan və müvafiq ərazi vahidinin digər tərkib hissələrinə ad verilməsi və onların adlarının dəyişdirilməsi **həmin ərazinin əhalisinin rəyi nəzərə alınmaqla** müvafiq icra hakimiyyəti orqanları tərəfindən həyata keçirilir.

23 may 2007-ci il tarixli "Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Konsepsiyası"nın 2-ci maddəsinə əsasən Azərbaycan xalqının mədəni-tarixi irsinin və mənəvi dəyərlərinin qorunması, eləcə də ümumbəşəri dəyərlərlə zənginləşdirilməsi, dilinin, **özünüdərk, vətənpərvərlik və milli iftixar hissinin**, intellektual potensialının inkişaf etdirilməsi Azərbaycan Respublikasının milli maraqlarına aiddir. Qeyd edilən Konsepsiyanın 4.3.3-cü yarımbəndi müəyyən edir ki, elm, təhsil, mədəniyyət və mənəviyyatın qorunması siyasəti Azərbaycan xalqının mədəni irsinin, maddi və mənəvi dəyərlərinin mühafizəsinə, onun mədəni tələbatlarının ödənilməsi vasitələrinin və elmi-texniki potensialının daxili və xarici təhdidlərdən qorunmasına, mütərəqqi daxili və beynəlxalq inkişafdan bəhrələnməsinə yönəlmişdir.

14 fevral 2014-cü il tarixli "Azərbaycan Respublikasının Mədəniyyət Konsepsiyası"nın 3-cü bəndinə əsasən hər bir xalqın mədəni irsi özündə milli-mənəvi dəyərləri əks etdirən və onu dünya miqyasında tanıdan vasitədir. Qeyd edilən Konsepsiyanın "Mədəni irsin qorunması" adlı 3-cü bəndi müəyyən edir ki, "Hər bir xalqın mədəni irsi özündə milli-mənəvi dəyərləri əks etdirən və onu dünya miqyasında tanıdan vasitədir".

21 dekabr 2012-ci il tarixli "Mədəniyyət haqqında" AR Qanununun 1.0.1-ci maddəsi müəyyən edir ki, mədəniyyət – ədəbiyyat və incəsənət daxil olmaqla, cəmiyyətin və ya sosial qrupların maddi, mənəvi, intellektual və emosional xüsusiyyətlərini müəyyənləşdirən, insanların həyat tərzini, birgə yaşayış qaydalarını, mənəvi dəyərlər sistemini əhatə edən xüsusiyyətlərin məcmusudur. Qanunun 4.0.3-cü maddəsinə əsasən mədəniyyət sahəsində demokratiklik prinsipi **əhalinin azad düşüncə ruhunda tərbiyələndirilməsi**, mədəniyyət sahəsinin dövlət-ictimai əsaslarla təşkilində və idarə edilməsində hüquq və azadlıqların genişləndirilməsi, estetik düşüncə azadlığının təmin

edilməsi, yeni mədəniyyət təşkilatlarının yaradılmasının stimullaşdırılmasıdır. Qanunun 4.0.4-cü maddəsində müəyyən edilmişdir ki, humanistlik prinsipi dünyəvi dəyərlərin, şəxsiyyətin azad inkişafının, insan hüquqları və azadlıqlarının, sağlamlığın və təhlükəsizliyin, ətraf mühitə və **insanlara qayğı və hörmətin prioritet** kimi qəbul olunmasıdır.

Qeyd edilən Qanunun 7-ci maddəsinə əsasən "7.1. Azərbaycan Respublikasında mədəni həyatda iştirak etmək hüququ dövlət tərəfindən təmin edilir. 7.2. Hər kəs öz mədəniyyət kimliyini və ona uyğun həyat tərzini müəyyən etməkdə, yaradıcılıq fəaliyyətini seçməkdə, mədəni sərvətlərin yaradılmasında, mədəni nemətlərdən bərabər istifadə etməkdə tam sərbəstdir." Həmçinin Qanunun 8.1-ci maddəsinə əsasən hər kəsin öz milli mədəni özünəməxsusluğunu qoruyub saxlamaq, mədəniyyət kimliyini müəyyən etmək, mənəvi, estetik və digər dəyərlərini sərbəst seçmək hüququ vardır.

Təqdirəlayiq haldır ki, bu sahədə **dövlət standartları** da müəyyən edilmiş, Azərbaycan Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin 10 may 2013-cü il tarixli 041 nömrəli əmri ilə təsdiq edilərək qüvvəyə minmişdir. Belə ki, "Nəqliyyat infrastrukturu obyektlərinə adların verilməsi, daşınmaz əmlak obyektlərinə ünvan nömrələrinin təyini, ünvan lövhələrinin yerləşdirilməsi" haqqında Azərbaycan Respublikasının Dövlət Standartının (AZS 749-2013) 1.2.5-ci yarımbəndinə əsasən Nəqliyyat infrastrukturu obyektləri (NİO) – küçələr (o cümlədən, nəqliyyat vasitələrinin hərəkəti üçün məhdudlaşdırılmış küçələr), prospektlər, avtomobil yolları, meydanlardır. Qeyd edilən Dövlət Standartının 1.2.13-cü yarımbəndinə əsasən prospekt, küçə, döngə, dalan, keçid – yaşayış, sənaye zonaları, ictimai mərkəzlər, məhəllələr arasında piyada və nəqliyyat əlaqələrini təmin edən bütün uzunluq boyu təsbit olunmuş xətti sərhədləri, başlanğıcı və sonu olan abadlaşdırılmış şəhərsalma obyektləridir [2].

Həmçinin Dövlət Standartının 2-ci bəndinə əsasən "2.1. NİO-lara (küçə, prospekt, bulvar, meydan və buna bənzər yerlərə) adlar yerli icra hakimiyyəti orqanları tərəfindən verilir. 2.2. Nəqliyyat infrastrukturu obyektlərinə adların verilməsi zamanı aşağıdakılara riayət edilməlidir: 2.2.1. verilən ad vahid ünvan sisteminə uyğun olmalıdır; 2.2.2. ad yerli adlandırma ənənələrinə əsaslanmalı və ona uyğun həyata keçirilməlidir; 2.2.3. ad ərazinin məzmunu ilə vəhdət təşkil etməlidir;..."

Ona da diqqət edilməlidir ki, 06 iyun 2012-ci il tarixli "Yerli icra hakimiyyətləri haqqında Əsasnamə"nin 1.4-cü bəndinə əsasən "Yerli icra hakimiyyətlərinin başçıları öz fəaliyyətini vətəndaşların hüquq və azadlıqlarının, qanuni mənafelərinin müdafiəsi, müvafiq ərazinin əhalisinin rifahını yaxşılaşdırmaq naminə iqtisadiyyatın, sosial və mədəni sahələrin inkişafının təmin edilməsi, qanunçuluq, **aşkarlıq və ictimai rəyin nəzərə alınması** prinsipləri əsasında qururlar".

Həmçinin qeyd edilməlidir ki, "İnzibati icraat haqqında" Azərbaycan Respublikası Qanununun 67-ci maddəsinə əsasən "67.1. inzibati orqan tərəfindən inzibati icraat haqqında hüquq normalarının və ya **maddi hüquq normalarının pozulması və ya düzgün tətbiq edilməməsi nəticəsində qəbul edilmiş inzibati akt qanunsuz sayılır**. 67.2. Qanunsuz inzibati akt həmin aktı qəbul etmiş inzibati orqan, subordinasiya baxımından yuxarı inzibati orqan və ya qanunla şikayətə baxmaq səlahiyyətinə malik olan müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən və yaxud məhkəmə qaydasında ləğv oluna bilər. 67.3. Qanunsuz əlverişsiz inzibati akt hər bir halda ləğv olunmalıdır. Azərbaycan Respublikasının müvafiq qanunları ilə başqa qayda nəzərdə tutulmamışdırsa, qanunsuz əlverişsiz inzibati aktın ləğv olunması həmin aktın qüvvəyə mindiyi andan yaranmış hüquqi nəticələri aradan qaldırır".

*Yuxarıda qeyd edildiyi kimi, bu sahədə normalar müəyyənləşdirən milli qanunvericilik aktları ilə bərabər* ***beynəlxalq aktlar****a da diqqət edilməsi zəruridir.*

Belə ki, 1948-ci il tarixli "Ümumdünya İnsan Hüquqları Bəyannaməsi"nin 22-ci maddəsinə əsasən "Cəmiyyətin bir üzvü kimi, hər bir insan sosial təminat hüququna və öz ləyaqətini qoruyub saxlaya bilmək və öz şəxsiyyətini azad inkişaf etdirmək üçün iqtisadi, sosial və **mədəni sahələrdə zəruri olan hüquqlarını milli səylər** və beynəlxalq əməkdaşlıq vasitəsilə, hər bir dövlətin strukturu və resurslarına müvafiq olaraq həyata keçirmək hüququna malikdir".

1966-cı il tarixli "İqtisadi, sosial və mədəni hüquqlar haqqında" Beynəlxalq Paktın 1-ci maddəsinə əsasən bütün xalqlar öz müqəddəratını təyin etmək hüququ, həmçinin, öz siyasi statuslarını müəyyənləşdirmək və azad şəkildə sosial-iqtisadi və mədəni inkişaflarını təmin etmək hüququna malikdir. Qeyd edilən Paktın 15-ci maddəsinə əsasən hər bir şəxs mədəni həyatda iştirak etmək; elmi tərəqqinin nəticələrindən istifadə etmək hüququna malikdir. Paktın 3-cü maddəsi müəyyən etmişdir ki, bu Paktda iştirak edən dövlətlər kişi və qadınların bu Paktda təsbit olunmuş bütün iqtisadi, sosial və **mədəni hüquqlardan istifadə etməkdə bərabər hüquqlarını təmin etməyi** öhdələrinə götürürlər.

1966-cı il tarixli "Mülki və siyasi hüquqlar haqqında" Beynəlxalq Paktın 1.1-ci maddəsinə əsasən bütün xalqlar öz müqəddəratını təyinetmə hüququna malikdirlər. Bu hüquq sayəsində onlar öz siyasi statuslarını sərbəst müəyyən edir və öz iqtisadi, sosial və mədəni inkişaflarını sərbəst təmin edirlər.

Həmçinin BMT-nin "Yerli xalqların hüquqları haqqında" 13 sentyabr 2007-ci il tarixli Konvensiyasının 13-cü maddəsinə əsasən yerli xalqlar öz tarixləri, dilləri, şifahi ənənələri, fəlsəfəsi, yazı sistemləri və ədəbiyyatını canlandırmaq, istifadə etmək, inkişaf etdirmək və gələcək nəsillərə ötürmək, birliklər, **məkanlar və şəxslərə öz adlarını vermək hüququna malikdirlər**.

Milli və beynəlxalq aktların müddəalarından aydın göründüyü kimi, prospekt, küçə, meydan və müvafiq ərazi vahidinin digər tərkib hissələrinə ad verilməsi və onların adlarının dəyişdirilməsi mədəniyyət hüququna aid məsələ olmaqla, həm fərdin, həm də toplumun iradəsinin ifadəsi ilə şərtləşdirilmişdir.

Bu sahədə müxtəlif beynəlxalq materiallara baxdıqda analoji hüquqi yanaşmaların mövcudluğunu və inkişafını müşahidə etmək mümkündür.

Belə ki, **BMT-nin İqtisadi və Sosial Məsələlər Departamenti**nin "Toponimlər və mədəni irs" adlı Birinci Regional Təliminin BMT-nin Coğrafi adlar üzrə Ekspert Qrupu tərəfindən hazırlanmış Materiallarına əsasən BMT-nin "Yerli xalqların hüquqları haqqında" 13 sentyabr 2007-ci il tarixli Konvensiyasının 13-cü maddəsinə əsasən yerli xalqlar öz tarixləri, dilləri, şifahi ənənələri, fəlsəfəsi, yazı sistemləri və ədəbiyyatını canlandırmaq, istifadə etmək, inkişaf etdirmək və gələcək nəsillərə ötürmək, birliklər, məkanlar və şəxslərə öz adlarını vermək hüququna malikdirlər [7].

Həmçinin **BMT-nin Coğrafi adlar üzrə Ekspert Qrupu**nun (UNGEGN) 2015-ci il may tarixli 48 nömrəli "İnformasiya Bülleteni"ndə küçə adları mədəni irsə daxil olan kateqoriya kimi təhlil olunur [6].

Beynəlxalq elmi ədəbiyyatlarda küçə adları məhz mədəni irsə daxil olan kateqoriya kimi tədqiq edilib, müəyyənləşdirilmişdir. Müqayisə üçün sadəcə "Google" axtarış sistemində, www.researchgate.net, www.academia.edu kimi beynəlxalq elmi platformalarda müxtəlif beynəlxalq dillərdə axtarışa verdikdə küçə adlarının mədəni irsə aid, mədəniyyət hüququnun realizəsində mövcud olan, ictimai fikrə təsir göstərən kateqoriya kimi tədqiq olunduğunu müşahidə etmək mümkündür. Məs., Çin alimi Heng Zhang "Stre-

et Naming and Name Preserving in Urbanization: A Cultural Memory Perspective" [3], Çexiya alimi Yaroslav David "Street names- Between ideology and cultural heritage" [4], Kanada alimi Inge Særheim "Official urban naming: cultural heritage and identity" [5] və s.

***Milli və beynəlxalq müddəalardan aydın görünür*** ki, prospekt, küçə, meydan və müvafiq ərazi vahidinin digər tərkib hissələrinə ad verilməsi və onların adlarının dəyişdirilməsi müvafiq icra hakimiyyəti orqanlarının səlahiyyətlərinə aid edilsə də, həmin səlahiyyətin yalnız qanunvericilikdə müəyyən edilmiş mexanizm çərçivəsində həyata keçirilməsi tələbi mövcuddur. Hazırkı məsələdə isə bu, həmin ərazinin əhalisinin rəyinin alınması kimi tələbdir. Bu tələb texniki məsələ deyil, birbaşa xalqın iradəsinin ifadəsi, mədəni və mənəvi irsin qorunması, insanlara hörmət, aşkarlıq və ictimai rəyin nəzərə alınması kimi demokratik şərtlərlə sıx bağlı bir məsələdir.

Bununla əlaqədar olaraq maddi hüquq normalarının pozulması və ya düzgün tətbiq edilməməsi nəticəsində qəbul edilmiş inzibati akt qanunsuz sayılır. Qanunsuz əlverişsiz inzibati akt olduqda isə hər bir halda ləğv olunmalıdır və qanunsuz əlverişsiz inzibati aktın ləğv olunması həmin aktın qüvvəyə mindiyi andan yaranmış hüquqi nəticələri aradan qaldırır.

**İstifadə edilmiş mənbələr:**


1. Hüquqi aktların vahid elektron bazası:[Elektron resurs]/URL:https://e-qanun.az
2. "Nəqliyyat infrastrukturu obyektlərinə adların verilməsi, daşınmaz əmlak obyektlərinə ünvan nömrələrinin təyini, ünvan lövhələrinin yerləşdirilməsi", Azərbaycan Respublikasının Dövlət Standartı: [Elektron resurs]/URL:https: https://emlak.gov.az/photos/shares/old/pdf/UNVAN_Standart.pdf
3. Heng Zhang. "Street Naming and Name Preserving in Urbanization: A Cultural Memory Perspective": [Electronic resource]/URL: https://pubs.sciepub.com/wjssh/6/3/3/index.html
4. Yaroslav David "Street names- Between ideology and cultural heritage": [Electronic resource]/URL: https://www.researchgate.net/publication/291992795_Street_names_-_Between_ideology_and_cultural_heritage
5. Inge Særheim ."Official urban naming: cultural heritage and identity": [Electronic resource]/URL: https://uis.brage.unit.no/uis-xmlui/handle/11250/185299
6. United Nationas Group of Experts on Geographical names (UNGEGN). – Information Bulletin, No48, – May, 2015: [Electronic resource]/URL: https://unstats.un.org/unsd/geoinfo/ungegn/docs/Bulletin/UNGEGN%20Bulletin%2048_FINAL.pdf
7. Toponymy and Cultural Heritage The 1st Regional Training Program in Toponymy including Marine Toponymy Manila, 19-24 March 2018/United Nations Group of Experts on Geographical Names (UNGEGN)). [Electronic resource]/URL: https://unstats.un.org/unsd/geoinfo/ungegn/docs/Training/Manila/day%206/09_LAUDER_Toponymy%20and%20Cultural%20Heritage%20-%20UNGEGN%20Manila%20-%20Final.pdf


**Джаби Гюльшан Забит гызы**

## О ПРАВОВОМ РЕГУЛИРОВАНИИ НАЗВАНИЙ УЛИЦ, О КУЛЬТУРНОМ НАСЛЕДИИ И ИДЕОЛОГИЧЕСКИХ ВОПРОСАХ

### РЕЗЮМЕ

В статье исследуется значение названий улиц как культурного наследия и вопросы правового регулирования. Анализируются международные и национальные правовые нормы. Идеологические аспекты названий улиц как категории, являющейся частью культурного наследия, выражающей национально-нравственные ценности

и влияющей на общественное мнение был проанализирован. Автор изложил свою правовую позицию по ряду вопросов.

**Jabi Gulshan Zabit**

**ABOUT LEGAL REGULATION OF STREET NAMES,
ABOUT CULTURAL HERITAGE AND IDEOLOGICAL ISSUES**

**SUMMARY**

The importance of street names as cultural heritage and issues of legal regulation are investigated in the article. The author gives analysis of international and national legal norms, as well as ideological aspects of street names as a category that is a part of cultural heritage and expresses national-moral values and influences of public opinion, making some suggestion on a number of relevant issues.

**Redaksiyaya daxilolma tarixi: 03.02.2024**
**Təkrar işlənməyə göndərilmə tarixi: 05.02.2024**
**Çapa qəbul olunma tarixi: 07.02.2024**